ədalət.- 2021.- 25 may.- S.3.

# Pənahəli xanın bizə əmanət etdiyi şəhər - Şuşa

***(12-13 may 2021-ci ildə Şuşanın məşhur Cıdır düzündə keçirilmiş "Xarıbülbül" Musiqi Festivalından qeydlər...)***

***Pənah babamızın öz əlləriylə,***
***Bir şəhər salınıb dağ zirvəsində.***
***Bu şəhər hər gecə yuxuma girir,***
***Cabbarın, Seyidin zəngulәsində.***

Hörmətli oxucular, bəri başdan deyim ki, bu günə qədər Ana Vətənim Şuşa haqqında xeyli yazılar yazmışam. Harda olmağımdan asılı olmayaraq Şuşanın yaranma tarixindən, dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətlərdən, insanı heyrətləndirən mənzərələrindən, türk dünyası üçün müqəddəs şəhər olmasından fəxrlə söz açmışam. Belə bir torpaqda doğulmağımla fəxr etmişəm. Bu şəhərin hansı coğrafi məkanda yerləşdiyini, necə şəhər olduğunu məndən soruşanlara fəxrlə demişəm:

***Bu şəhər şəhərlər şahənşahıdır,***
***Bu şəhər Günəşlə, Ayla qoşadır.***
***Bu şəhər dünyanı heyrətə salıb,***
***Adı Pənadabad, adı Şuşadır!***

Mənim bu yazım indiyənə kimi, Şuşa haqqında yazdığım yazılardan fərqlənir. Bu yazı son 30 ilə yaxın müddətdə həsrətin çəkdiyim, bir an olsun belə unutmadığım, düşmən işğalı altında olduğu vaxtlarda ruhunu, azərbaycanlılara məxsusluğunu, türksoyların Ana Vətəni olduğunu və s. daşıdığı adında, tarix və memarlıq abidələrində, gül-çiçəklərində, toponimlərində, poeziya və musiqisində, "Qarabağ şikəstəsi"ndə, Allaha yaxınlıq rəmzi sayılan əzəmətli minarələrində qoruyub-saxlamış bir şəhərin hekayəsidir.

...Səmimi deyim ki, Şuşanın (8 noyabr 2020-ci il tarixində) işğaldan azad olması xəbərini eşidəndə uşaq sevincliyi ilə qışqırdım, ayaqyalın küçəyə qaçdım, göz yaşlarımı saxlaya bilmədim. Sevincimi insanlarla bölüşməyə çalışdım...

Mən bu yazını Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dünyaya çatdırdığı: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" cümlələri ilə başlamağı özümə mənəvi borc bildim!

Bu yazı qəhrəman əsgərlərimizin, canını və qanını Vətən uğrunda qurban vermiş şəhidlərimizin, qazilərimizin, bütünlükdə xalqımızın 44 günlük Vətən müharibəsində qazandıqları qələbəmizin hekayəsidir. Bu yazı su kimi axıtdığımız qanımıza, dağlar kimi yığdığımız sümüklərimizə sahib çıxmaq bacarığımızın essesidir. Bu yazı Vətən müharibəsində əfsanəvi qəhrəmanlıqlar göstərən Azərbaycan əsgərinin Ermənistan ordusu üzərində tarixi qələbəsinin dastanıdır - dərsliyidir... Bu yazı Azərbaycan ordusunun əli ilə Ermənistan ordusunun bel sütununun qırıldığını sübut edən əsərdir. Nəhayət, bu yazı əsrlərlə azərbaycanlılara və türklərə qənim kəsilmiş - işğalçılıq siyasətindən əl çəkməyən, tarixdə mədəni rol oynamağı bacarmayan, paxıl, riyakar, vətənsiz, güclü dövlətlərin qucağına sığınmağı özlərinə şərəfli peşə sayan, bir sözlə, qonşuluğu, insanlığı dərk edə bilməyən ermənilərin iç üzünü açan kiçik bir yazıdır...



...12-13 may 2021-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" Musiqi Festivalında iştirak etmək mənə də nəsib oldu.

Şuşaya ayaq basanda hansı hissləri keçirdiyimi Allah bilir.

...45 ilə yaxın yaşadığım, 30 ilə yaxın müddətdə ayrı düşdüyüm torpağı duz təki yaladım; bir çimdik torpaq götürüb uddum. Dizlərim üstə çöküb doyunca torpağı qoxladım... Müqəddəs Gövhər Ağa məscidində namaz qıldım. Cıdır düzünün ətrafındakı şəhidlərin və ulularımızın qəbiristanlığın ziyarət etdim. Onu da deyim ki, məzarıstanlıq yerlə-yeksan olunub, erməni vandalları tərəfindən tanınmaz hala salınıbdır. Əllərimlə tikdiyim evimizin daşı daş üstə qalmayıbdır. Sizlərdən nə gizlədim, bu mənzərələr ürəyimi parça-parça elədi... Lakin Şuşanı görməyim gücümü artırdı.

...Cıdır düzündə qurulmuş əzəmətli səhnə, dahi Üzeyir Hacıbəylinin milli ruhundan yaranmış "Koroğlu" uverturası, tanınmış muğam və mahnı ifaçılarının çıxışları, dağlarda, dərələrdə, bütünlükdə Qarabağda əks-səda verirdi.

Festivalda iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və ailə üzvləri iştirakçılar tərəfindən sonsuz məhəbbətlə qarşılandılar. Şuşa bahar çiçəklərinə, Xarıbülbül gülünə bələnmişdi.

Yeri gəlmişkən deyək ki, "Xarıbülbül" Musiqi Festivalı xalqımızın dünyaya sülh və əminamanlıq çağırışlarının, mədəniyyətin mesajı idi. Bu Festivalda həm də tarixdə heç bir mədəni rol oynamağı bacarmayan işğalçı ermənilərin kimliyi, onların viranəyə çevirdikləri kəndlərin, şəhərlərin, qəbiristanlıqların mənzərələri dünyaya çatdırıldı.

Vaxtilə qarış-qarış gəzdiyim, dərindən tanıdığım, vəsfinə şeirlər, əsərlər yazdığını Şuşanın düşmən qabağında əyilməyən ruhu gələcəkdə yazacağım ən qiymətli əsər olacaqdır.

Düşünürəm ki, Şuşa haqqında yazılmış şeirləri, tədqiqat sənədlərini, mahnıları, filmləri, şəkilləri ümumiləşdirilmiş şəkildə - muzeyləşdirməyin vaxtı çatmışdır. Sonda deyim ki:

***Görəsən dünyada bənzəri varmı,***
***Dünyanı heyrətə salan Şuşanın?!***
***İnana bilmərəm bənzəri olsun,***
***Əyyubun ruhunda qalan Şuşanın!***

**Əyyub Şırlanlı,**
**şair-publisist, AYB-nin üzvü,**
**əməkdar müəllim**